Fərhad Bədəlbəyli – 75



# Royalın sehrinə düşən ömür...

**Bir əsr tarixi olan, Üzeyir Hacıbəylinin adını daşıyan Bakı Musiqi Akademiyasının rektoru, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, professor Fərhad Bədəlbəylinin yaradıcılığı və ictimai fəaliyyəti daim ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmiş və o, dövlətimizin fəxri adları, müxtəlif orden və medalları ilə təltif olunmuşdur. Bu, onun həmkarlarında, dostlarında, tələbə-gənclərdə inam və ruh yüksəkliyi yaradır.**

Üzeyir bəy ocağını idarə edən Fərhad Bədəlbəyli bir şəxsiyyət kimi özündə çox keyfiyyətləri birləşdirir. Keçmiş İttifaq dövründə XX əsrin "60-cılar nəsli"nin nümayəndələri özünəməxsus istedadla fərqlənirdilər. Siyasi yumşalma "Qızıl dövr" gənclərinin qarşısında geniş imkanlar açırdı. O zamanlar musiqi sənətinə yiyələnmək bir növ müasirliklə ayaqlaşmaq, cəmiyyətin aparıcı mənəvi qüvvəsinə çevrilmək demək idi. Bu baxımdan 10 illik xüsusi təmayüllü musiqi məktəbini bitirdikdən sonra biz – Fərhadın gələcək ömür-gün yoldaşı və mənim məktəb illərində sinif yoldaşım, rəfiqəm olan Nailə İbrahimova, həmçinin Fərhad bəy pianoçu, mən isə bəstəkar ixtisası üzrə Azərbaycan Dövlət Konservatoriyasına qəbul olduq.

Fərhad müəllimin fəaliyyəti çoxşaxəlidir. Lakin o, gənclik illərindən başlayaraq, yaradıcılığını əsasən piano ifaçılığına həsr etmişdir. Məlum olduğu kimi, bu sahədə çox böyük uğurlar qazanmışdır. 60-70-ci illərdə beynəlxalq musiqi müsabiqələrində uğurlu çıxışları, keçmiş ittifaqın siyasi, mədəni mərkəzi olan Moskvada aspirantura pilləsində təhsilinin davamı, görkəmli müəllimlərdən dərs alması və ümumiyyətlə, qarşıya qoyduğu məqsədə nail olması, Fərhad müəllimin yaxşı mənada inadkarlığından, çalışqanlığından və istedadından xəbər verir.

İxtisasına məsuliyyətlə yanaşmaq, eyni zamanda, dünyagörüşünü genişləndirmək cəhdi onun ailə ənənələrindən irəli gəlir. Bədəlbəylilər və Səfərəliyevlər nəslinin nümayəndəsi kimi Fərhad onların layiqli davamçısıdır.

Fərhad Bədəlbəyli böyük istedad sahibidir. O, təbiətcə demokratik prinsiplərlə yaşayıb-yaradan insandır. Demokratik xarakterə malik olması onun fəaliyyətinin çoxşaxəliyindən irəli gəlir. O, həm poeziya ilə məşğuldur, həm musiqi bəstələyir, həm də Bakı Gənclər Kamera Orkestrinə rəhbərlik edir.

Tale elə gətirdi ki, bizim Azərbaycan Dövlət Konservatoriyasındakı əməkdaşlığımızın ilk addımları o çətin 90-cı illərə təsadüf etdi. O zaman Üzeyir bəyin səyi nəticəsində Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) qurulan kadr siyasəti, gənc ifaçıların, musiqiçilərin yüksək professional səviyyəyə qaldırılması prosesi öz çiçəklənmə dövrünü yaşayırdı. Lakin 1-ci Qarabağ müharibəsi konservatoriyadan xaricə kadr axınına səbəb olmuşdu. Mükəmməl təhsil almış Azərbaycan musiqiçiləri həm gənc orkestr ifaçıları kimi, həm mütəxəssis müəllim kimi dünyanın hər bir yanına səpələndilər. Azərbaycan musiqi həyatına rəhbər olaraq böyük təhlükə ilə qarşılaşan Fərhad müəllim, müxtəlif təşkilatlara, dövlət qurumlarına müraciətlər vasitəsilə kadr axınının qarşısını almaq, tələbə gəncləri həvəsləndirmək, müsabiqələr keçirərək mükafatlandırmaq, eləcə də xarici ölkələrlə əlaqələr qurmaq, gəncləri bu ölkələrə ezam etmək və eyni zamanda, gənc nəsli elmə yiyələndirmək arzusunu həyata keçirirdi. Hətta çətin 1991-1992-ci illərdə Fərhad müəllimin rəhbərliyi ilə "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi" və "Qədim Azərbaycan musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi" adlı 2 elmi-tədqiqat laboratoriyasının açılmasına nail ola bildik.

Bu laboratoriyalar qısa müddətdə aparıcı alimlərin sayəsində dövlət əhəmiyyətli böyük işlər gördü. Milli alətlər bərpa olundu, alətlərin elmi yollarla Azərbaycana məxsus olduğu sübuta yetirildi. Müxtəlif dillərdə alətlərin rəngli albomlarının çapı, elmi araşdırmalar, seminarlar, konfranslar və s. tədbirlərin keçirilməsi Fərhad müəllimin ciddi marağı və rəhbərliyi ilə oldu. Bütün bunların nəticəsi kimi isə aspirantura (doktorantura) pilləsi Bakı Musiqi Akademiyasında fəaliyyət göstərməyə başladı. Qeyd edək ki, bu gün musiqi sahəsində elmi dərəcələrin verilməsi də keçmiş SSRİ-də olan kimi artıq Azərbaycandan kənarda yox, müstəqil ölkəmizdə həyata keçirilir və musiqi sənəti üzrə dissertasiya müdafiə şurası bəzi qısa fasilələrlə Bakı Musiqi Akademiyasında təşkil olunur. Şuranın sədri professor Fərhad Bədəlbəylidir.

Elm sahəsində Fərhad müəllimin özünün çox maraqlı nailiyyətləri var. Dünya şöhrətli alim, akademik Azad Mirzəcanzadənin Fərhadla dostluğu isə onların musiqi və digər elm sahələrinin bağlılığı ideyası haqqında həmmüəllif olduqları "Музыкальная смесь" adlı kitabla nəticələndi.



Çox maraqlı və məzmunlu bu kitab, musiqi ilə fənlərarası elmi tədqiqat kimi oxuculara təqdim olundu. Kitabda çox maraqlı bir fikir irəli sürülür – keçmiş, müasir və gələcəyin musiqisi hansılardır və necə olmalıdır? Bethovenin son kvarteti gələcəyin musiqisi kimi nümunə göstərilir. Burada ideya qavrama psixoloji amilinə söykənir. Deməli, musiqi fəlsəfə, psixologiya, numerologiya, riyaziyyat və s. kimi fənlərlə sıx təmasdadır. Kitabın hər səhifəsində biz müəlliflərin fənlərarası analogiyalara verdikləri nümunələrə rast gəlirik. Bu isə bizə bir daha bu iki nəhəng insanın fikirlərinin elmi şəkildə izahını yüksək qiymətləndirməyə imkan verir.

Kitab 2006-cı ildə işıq üzü görmüşdür. Az deyil, aradan 16 il keçir və sürətlə dəyişən dünyamızda müəlliflərin dediyi fikirlər hələ də öz dəyərlərini qoruмaqdadır. Kitabdakı tədqiqat gələcəyin fənlərarası elmidir və musiqi ixtisası fənlərində mütləq şəkildə tədris proqramına daxil oluna bilər.

Tanınmış alim, dəqiq elmlər sahəsində dünya şöhrəti qazanan akademik Azad Mirzəcanzadə Ali Attestasiya Komissiyasının ilk qurucularından biri olmuşdur. Musiqi sanki onun qoruyucu mələyi, sirdaşı idi. O, Bakı Musiqi Akademiyasında keçirilən konsertlərin daimi dinləyicisi idi. Xüsusilə Fərhad müəllimin BMA-da təşkil etdiyi musiqi axşamlarından sonra keçirilən müzakirələrdə maraqlı çıxışlar edirdi. Musiqi sahəsində olan belə dərin düşüncə bacarığı bizi heyrətləndirirdi. Sonralar bu ənənəni AAK-ın digər sədri, akademik Arif Mehdiyev də davam etdirdi. O, məsul işçiləri ilə klassik musiqi axşamlarının daimi iştirakçısı oldu. Əlbəttə ki, bu maraq və münasibət boş yerdən əmələ gəlməmişdi. Burada aparılan işin keyfiyyəti professor F.Bədəlbəylinin səylərinin nəticəsi idi. Fərhad müəllim BMA-nın səviyyəsini saxlamağı bacarırdı.

Professor F.Bədəlbəyli BMA-da fəaliyyət göstərən dissertasiya müdafiə şurasının sədri kimi şuranın tərkibində olan alimlərə iddiaçıya obyektiv, qərəzsiz yanaşmağı tövsiyə edir və özü də elmi əsərin nə dərəcədə dəyərli olduğunu çox maraqlı açıqlamalarla izah edir, onun fikirləri fərqli olur və iclasın gedişatına gözlənilməz effekt verir. Belə ki, o, bəzi gözdən yayınan tarixi-nəzəri faktları dərhal üzə çıxarır. Bir növ iddiaçını məyus edərək, digər tərəfdən "gələcəkdə bunu nəzərə al" sözləri ilə ona təsəlli tapmağa ümid yeri yaradır. Türkiyədən BMA-ya doktorantura pilləsində təhsil almağa gələn doktorantlara xüsusi münasibət göstərir. Məqsəd odur ki, dissertasiya işlərində Azərbaycan və Türkiyə musiqi mədəniyyəti müqayisəli şəkildə təhlilə cəlb olunsun. Qeyd edək ki, bu istiqamətdə bir sıra türk doktorantlar BMA-da müvəffəqiyyətlə müdafiə etmiş və hazırda Türkiyədə uğurla çalışmaqdadırlar.

Uzun illərdir ki, Fərhad müəllim rektor kimi gənc nəslin tərbiyəsi ilə məşğul olaraq onları bir musiqiçi və bir vətəndaş kimi yetişdirir. Gənclərin qarşısında böyük ifaçılıq tələbləri qoyaraq, onları dünya arenasında qələbə qazanmaq üçün hazırlayır.

Fərhad müəllimin dünyagörüşü, siyasi baxışları hər zaman millətə xidmət məqsədini daşıyır. Onun baxışlarında həm dünyəvilik, həm də xəlqilik var. O xarici ölkələrdə solo və simfonik orkestrlərlə konsertlər verib. Pianoçunun qastrol səfərləri – Bolqarıstan, Almaniya, Rusiya, ABŞ, Yunanıstan, Danimarka, İsrail, İtaliya, Kuba, Norveç, Portuqaliya, Tunis, Türkiyə, Finlandiya, Fransa, Çexoslovakiya, İsveçrə, Yuqoslaviya, Yaponiya və başqa ölkələri əhatə edir. O, bu ölkələrdə konsertlər verərkən təkcə Azərbaycanın musiqi mədəniyyətini təmsil etməyib, eyni zamanda, dünya ictimaiyyətinə Xocalı soyqırımını çatdırıb və Qarabağ problemlərini təbliğ edib. İfaçılar və nəzəriyyəçilərin təcrübələrini artırmaq məqsədilə ustad dərsləri aparmaq üçün xarici ölkələrdən tanınmış professor-musiqiçiləri dəvət edir. Digər tərəfdən, BMA-nın professor-müəllim heyəti ilə Azərbaycanın bölgələrində musiqi müəllimləri üçün ustad dərsləri keçirərək, eyni zamanda, hər il avqust ayında Qəbələ Musiqi Festivalını təşkil etməsi ilə Azərbaycan xalqının dünya musiqi mədəniyyəti ilə tanış olmasına imkan yaradır.

Onun idarəçiliyi heç vaxt həddini aşmayıb. Özünü idarə etmək bacarığı, qarşısındakına hörmətlə yanaşmaq, hər kəsi səbirlə dinləmək və imkan daxilində kömək etmək xüsusiyyətləri ona aiddir. Bir sözlə, Fərhad müəllim "böyüklə böyük, kiçiklə kiçik"dir. Təsadüfi deyil ki, uşaqların mükəmməl musiqi təhsili alması üçün onun rəhbərliyi ilə fəaliyyət göstərən BMA-nın nəzdində eksperimental təmayüllü elmi-ifaçılıq istiqamətinə yönələn Məktəb-Studiya artıq 40 ilin sınağından keçib və beynəlxalq miqyasda qəbul olunub. BMA-nın aparıcı professor-müəllim tərkibi ilə eyni binada təhsil aldıqları üçün burada oxuyan şagirdlərin yaradıcılıq ünsiyyəti asanlaşır və gələcək kadrlar göz önündə sənətə yiyələnirlər.

Fərhad müəllimin ən böyük arzularından biri də Şuşada musiqi məktəbini açmaqdır. Onda əsli Qarabağdan olan valideynləri tərəfindən bu torpağa məhəbbət yaranıb. Hətta, biz ailə albomundan görürük ki, Şəmsi müəllim Qarabağ tarını balaca Fərhada göstərir və bu alətdə necə çalmağı öyrədir. Bu arzular artıq xəyal deyil, Zəfər Bayrağımız indi Şuşa qalasında dalğalanır. Fərhad müəllimin "Xarıbülbül" festivalında iştirakı və bu tədbirdə Ali Baş Komandanımız İlham Əliyevin ətrafına ziyalıların və hərbçilərin bir yumruq kimi toplaşması Şuşanın mədəniyyət paytaxtına çevrilməsi təntənəsini bir daha təsdiqlədi. Beləliklə, Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylinin 75 illik yubileyi ərəfəsində Üzeyir bəy Hacıbəylinin Azərbaycanın mədəniyyəti tarixində qoyduğu ənənəvi miras onun simasında öz təntənəsini tapır.

**Gülnaz ABDULLAZADƏ,**
**Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor**